**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№379/2** **17 sentyabr 2025-ci il**

**"Yaşıl iqtisadiyyat şəraitində maliyyə nəzarəti və auditin həyata keçirilməsi prosedurları" barədə**

"Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasına" (2021-2030-cu illər) uyğun olaraq və Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2024-cü il 15 fevral tarixli 1/10 nömrəli sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının 7-ci "Yaşıl iqtisadiyyat şəraitində maliyyə nəzarəti və auditin həyata keçirilməsi prosedurlarının işlənib hazırlanması" bəndinin icrası ilə əlaqədar Palata Aparatının rəhbəri Qəşəm Bayramov və Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış metodoloji materialın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Yaşıl iqtisadiyyat şəraitində maliyyə nəzarəti və auditin həyata keçirilməsi prosedurları" Şura üzvlərinin irad və təklifləri nəzərə alınmaqla bəyənilsin (əlavə olunur).
2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, öz fəaliyyətlərində "Yaşıl iqtisadiyyat şəraitində maliyyə nəzarəti və auditin həyata keçirilməsi prosedurları"nın tətbiq edilməsini təmin etsinlər.
3. Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki, "Yaşıl iqtisadiyyat şəraitində maliyyə nəzarəti və auditin həyata keçirilməsi prosedurları" barədə materialın auditorların 2026-cı il üzrə ixtisasartırma kursunun tədris proqramına daxil olunması təmin edilsin.
4. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, iki həftə müddətində yaşıl iqtisadiyyat şəraitində maliyyə nəzarətinin təşkili və müstəqil auditin tətbiqi prosedurlarını özündə ehtiva edən məqalə hazırlayıb KİV-də işıqlandırılması üçün təqdim etsin.
5. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın və "Yaşıl iqtisadiyyat şəraitində maliyyə nəzarəti və auditin həyata keçirilməsi prosedurları"nın mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**